

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 161 (21.062)

*26 avqust 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixael Labendanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Muxtar respublikada keçirilən iməciliklər isti yay günlərində də davam etdirilir



Müxtəlif təbii amillər, xüsusən də ekoloji problemlər müasir dövrdə yaşıllıqların əhəmiyyətini daha da artırmışdır. Çünki ətraf mühitin qorunması və əlverişli ekoloji mühitin yaradılması insan sağlamlığına xidmət edir. Son illər muxtar respublikada keçirilən iməciliklər bu qədim diyarda təbiətin zənginləşdirilməsinə səbəb olmuş, yaşıllıqların və meyvə bağlarının sahəsi ilbəil artmışdır.

Avqustun 23-də muxtar respublikada növbəti iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gedən yolun ətrafındakı 3,5 hektarlıq meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

Ötən iməciliklər dövründə ərazidə 3 minə yaxın müxtəlif meyvə ağacları əkilmişdir. İməcilik iştirakçıları ağacları suvarmış, ətrafda səliqə-sahman yaratmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yaşıllıqlara qulluq işlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatlarının təsis edilməsi, Mükafat Komissiyasının yaradılması və Əsasnaməsinin təsdiq olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikasında elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələrində ən yaxşı əsərləri qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatları təsis edilsin.

2. Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

3. Mükafatlara təqdim olunan əsərlərin seçilib müəyyən olunması üçün Mükafat Komissiyasının tərkibi təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyası ilə birlikdə Naxçıvan Muxtar Respublika mükafatları qalibinin diplomunun nümunəsinə dair təklifi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 avqust 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının ƏSASNAMƏSİ

### I. Ümumi müddəalar və mükafatlandırılmanın şərtləri

1. Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyası (bundan sonra – Komissiya) elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələrində ən dəyərli əsərləri (işləri, layihələri) qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etmək məqsədilə yaradılmışdır.

2. Komissiyanın fəaliyyəti Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunları, digər qanunvericilik aktları və bu Əsasnamə ilə tənzimlənir.

3. Komissiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən yenidən təşkil və ləğv edilə bilər.

4. Komissiyaya aşağıdakı hüquqlar verilir:

4.1. elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələri üzrə bölmələr və ekspert qrupları yaratmaq, onların iş qaydasını təsdiq etmək;

4.2. təqdim edilən əsərlərlə fərdi şəkildə tanış olmaq məqsədilə zəruri hallarda yerlərə ekspert qrupları göndərmək;

4.3. təqdim edilən əsərlərə rəy vermək üçün ayrı-ayrı müəssisə və qurumları, habelə mütəxəssisləri cəlb etmək;

4.4. təqdim edilən əsərlərin və həmin əsərlərlə bağlı nəşr olunmuş resenziyaların və rəylərin ilkin öyrənilməsini təmin etmək;

4.5. təqdim edilən əsərlər zəruri tələblərə cavab vermədikdə müvafiq sahə üzrə Mükafatın verilməməsi barədə qərar qəbul etmək.

5. Komissiyanın fəaliyyətini təmin etmək üçün onun nəzdində katiblik yaradılır.

6. Komissiya öz blankına malikdir.

7. İki ildən bir verilən və hər biri 5000 (beş min) manat məbləğində olan elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə 5 (beş) Naxçıvan Muxtar Respublika Mükafatı (bundan sonra – Mükafat) hər iki ildən bir 9 fevral – Naxçıvan Muxtar Respublikasının təşkil edildiyi gün ərəfəsində Komissiyanın qərarı ilə dövlət büdcəsinin vəsaiti hesabına verilir.

8. Mükafat Azərbaycan Respublikasının vətəndaşı olan müəlliflərə elmin, texnikanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, dövlətçilik, iqtisadi inkişaf və digər sahələrdəki elmi kəşflərə və ixtiralara, qabaqcıl sənaye-texniki təcrübənin tətbiqinə və nəzəri tədqiqatlara, habelə yeni material və mexanizmlərin yaradılmasına görə verilir.

9. Əsərlər Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, dövlət idarə və təşkilatları, ali təhsil, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri, ictimai və yaradıcı birliklər tərəfindən Mükafata təqdim oluna bilər.

10. Fundamental və tətbiqi elmlərə aid əsərlər müvafiq elmi şuralarda müzakirədən sonra və ya Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti tərəfindən, bədii əsərlər isə yaradıcı ittifaqların qərarı ilə Mükafata təqdim edilir.

11. Əsərlər hər iki ildən bir yanvar ayının 1-dək Komissiyaya təqdim edilməlidir. Mükafata təqdim edilən namizədlərin və əsərlərin siyahısı Mükafatın verilməsinə bir ay qalmış kütləvi informasiya vasitələrində dərc olunur.

12. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsis edilən digər mükafatlara, eləcə də başqa ölkələrin dövlət mükafatlarına layiq görülmüş əsərlər bu Mükafata təqdim edilə bilməz.

Mükafat bir şəxsə bir dəfədən artıq verilə bilməz. Bir müəllifə eyni zamanda bir neçə əsərə görə Mükafat verilmir.

Bir qurum tərəfindən Mükafata yalnız bir əsər təqdim edilə bilər.

13. Mükafata layiq görülən şəxslərə pul vəsaiti ilə yanaşı, "Naxçıvan Muxtar Respublika Mükafatı qalibi"nin diplomu təqdim edilir.

14. Mükafatın pul hissəsi iki və daha çox müəllif olduqda bütün müəlliflər arasında bərabər bölünür.

15. Vəfat etmiş, yaxud ölümündən sonra təltif edilmiş qalibin diplomu və Mükafatın pul vəsaiti onun vərəsələrinə təqdim olunur. Qalibin vərəsələri olmadıqda diplom Komissiyada saxlanılır, pul vəsaiti isə dövlət büdcəsinə qaytarılır.

*Ardı 2-ci səhifədə*

**II. Əsərlər haqqında sənədlərin və materialların hazırlanması, onların təqdim olunma qaydası**

16. Elm, texnika, memarlıq və ədəbiyyat sahələrinə aid əsərlər mətbəə üsulu ilə çap edilmiş şəkildə 4 nüsxədə Komissiyaya təqdim olunur, zəruri hallarda digər müvafiq materiallar əlavə edilir.

Mədəniyyət sahəsi ilə bağlı əsərlər müxtəlif şəkildə, o cümlədən rəqəmsal, CD və DVD formatlarında təqdim olunur.

17. Əsərləri və namizədləri irəli sürən qurum, müəssisə və ya təşkilat Komissiya qarşısında vəsatət qaldırır. Vəsatətdə əsər və müəllif haqqında məlumat, mükafata təqdim olunma səbəbləri və əsərlə bağlı digər zəruri məlumatlar göstərilir.

18. Mükafata təqdim olunan müəllifin adı, atasının adı, soyadı, doğulduğu tarix, ixtisası, fəxri adları, elmi dərəcələri və elmi adları, iş yeri, tutduğu vəzifə, iş və ev ünvanı, əlaqə telefonları və elektron poçt ünvanı dəqiq göstərilməlidir.

19. Vəsatət qurum, müəssisə və ya təşkilatın rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq olunur. Qurum, müəssisə və ya təşkilatın rəhbəri əsərin müəllifi sırasına daxildirsə, təqdimat onun müavini tərəfindən imzalanır.

Kollektiv namizədlik irəli sürüldükdə vəsatətlə birlikdə hər bir müəllifin əsərin yaradılmasında iştirakını səciyyələndirən məlumat təqdim edilir. Təsviri sənət və memarlıq sahəsinə aid əsərlər üzrə həmin məlumat qurum, müəssisə və ya təşkilatın rəhbəri və irəli sürülmüş əsərlərin müəllifləri tərəfindən imzalanmalıdır.

20. Vəsatətlə birlikdə aşağıdakı sənədlər təqdim edilməlidir:

20.1. əsər və namizədlərin irəli sürülməsinə dair keçirilmiş iclas və yığıncaqların, elmi və ya texniki şuraların protokolları, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin və ya yaradıcı ittifaqların rəyasət heyətlərinin qərarı (kollektiv əsər təqdim olunduqda protokol və ya qərarda hər bir namizədin əsərdə iştirakı barədə məlumat əksini tapmalıdır);

20.2. hər bir namizədin əmək fəaliyyəti haqqında qısa məlumat və 4x6 sm ölçüdə iki ədəd fotoşəkil;

20.3. təqdim olunan əsərin tədqiqatçılar tərəfindən imzalanmış qısa annotasiyası;

20.4. elmi-texniki işlər üçün texniki və iqtisadi göstəricilər, tətbiqetmənin nəticələri, yayılma miqyası haqqında məlumat;

20.5. əsər və müəllifləri barədə mətbuatda dərc olunmuş rəy və tədqiqatlar (əsli və ya təsdiq olunmuş surəti).

21. Əsərin hər bir nüsxəsi cildlənərək, üz qabığında təqdim edən qurum, müəssisə və ya təşkilatın və əsərin adı, habelə müəllifin (müəlliflərin) adı, soyadı göstərilməklə Komissiyaya göndərilir. Komissiyanın ünvanı: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 50.

**III. Komissiya tərəfindən Mükafatın verilməsi barədə qərarın qəbul edilməsi**

22. Komissiyanın iclasları Komissiyanın sədri tərəfindən çağırılır.

İclasda Komissiya üzvlərinin ən azı 2/3 hissəsi iştirak etdikdə həmin iclas səlahiyyətli hesab olunur.

23. Mükafatın verilməsi barədə Komissiyanın qərarı gizli səsvermə yolu ilə qəbul olunur.

İştirak edənlərin ən azı 3/4 hissəsi namizədin lehinə səs verdiyi halda, Komissiyanın qərarı qəbul olunmuş hesab edilir.

24. Komissiyanın qəbul etdiyi qərar qətidir.

25. Mükafatın verilməsi barədə Komissiyanın qərarı kütləvi informasiya vasitələrində elan olunur.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının TƏRKİBİ

**Komissiyanın sədri**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini

**Komissiya sədrinin müavini**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri

**Komissiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tikinti-memarlıq məsələləri üzrə köməkçisi

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini

Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm nazirinin müavini

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi sədrinin müavini

Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri

## Gürcüstanın Acarıstan Muxtar Respublikasından olan uşaqlar Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunurlar



olan daha 19 uşaq Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunub.

Bu tədbirlərin davamı kimi, avqustun 23-də Acarıstan Muxtar Respublikasından olan 23 uşaq və 5 valideyn Naxçıvan Muxtar Respublikasına gəlib.

***Öz müalicəvi əhəmiyyətinə görə dünyada tanınmış Naxçıvanın Duzdağında hər il çoxlu sayda insan şəfa tapır. Bunlar arasında ölkəmizin vətəndaşları ilə yanaşı, dost ölkələrdən gəlmiş müxtəlif kateqoriyadan olan insanlar da vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəvəti ilə gürcüstanlı uşaqların burada pulsuz müalicə alması isə artıq ənənə halını almışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2012-ci ilin yanvar ayında Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfəri zamanı səhiyyə sahəsində əlaqələrin inkişafı barədə də fikir mübadiləsi aparılıb, bu sahədə qarşılıqlı əməkdaşlığın perspektivləri nəzərdən keçirilib. Ali Məclisin Sədri səhiyyə sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edib, tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların Naxçıvanın Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunması barədə təklif razılıqla qarşılanıb.

2012-ci il iyun ayının 2-dən 14-dək Acarıstan Muxtar Respublikasından olan və astma-bronxit xəstəliyindən əziyyət çəkən 14 uşaq Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicə kursu keçib. Ötən ilin iyun ayında Acarıstan Muxtar Respublikasından

"Duzdağ" otelində qonaqları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev, Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Ruslan Süleymanov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin nümayəndələri qarşılayıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Gürcüstanın Acarıstan Muxtar Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında yaradılmış əlaqələr müxtəlif sahələrdə öz bəhrəsini verməkdədir. Artıq üçüncü ildir ki, astma xəstəliyindən əziyyət çəkən xeyli sayda acarıstanlı uşaq Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunmaq imkanı tapır. Naxçıvanın təbii müalicə mərkəzləri haqqında məlumat verən Rəhman Məmmədov deyib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzi təbii müalicə ocağıdır. Son illər əsaslı şəkildə yenidən qurulan mərkəzdəki duz şaxtalarında bronxi-al-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Xəstələrə həkimlər tərəfindən müxtəlif müalicə kursları tətbiq edilir. Acarıstan Muxtar Respublikasından gələn xəstələrin də Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunması üçün hər cür şərait vardır.

Mərkəzə gəlmiş uşaqlarla görüşmək və onlara yaradılmış şəraitlə tanış olmaq üçün dünən Duzdağ Fizioterapiya Mərkəzində olduq. Burada bizə məlumat verildi ki, bu dəfə Acarıstandan gəlmiş qrupda 28 nəfər vardır. Onlardan 23 nəfəri müalicə üçün gəlmiş uşaq, digər 5 nəfəri isə Acarıstan Səhiyyə Nazirliyinin əməkdaşları və valideynlərdir. Uşaqlarla görüşdə onların burda olmaqdan sevinc hissi keçirdiklərini duyduq. Burada özlərini evdəki kimi hiss etdiklərini bildirən acarıstanlı uşaqlar və onları müşayiət edənlər yaradılmış şəraitdən və qonaqpərvərlikdən çox razılıq etdilər. İkihəftəlik müalicə kursu bitdikdən sonra ölkələrinə geri qayıdacaq acarıstanlı qonaqlar Naxçıvanda gördükləri yüksək xidmət mədəniyyətini, iqtisadi inkişafı dostları ilə bölüşəcəklərini bildirdilər.

Acarıstanlı uşaqlar üçün Duzdağ şaxtalarında təşkil olunan müalicə kursu ilə yanaşı, onların asudə vaxtlarının da səmərəli təşkilinə diqqət yetirilir. Onlardan bəziləri buraya ikinci və üçüncü səfərlərinin olmasına baxmayaraq, Naxçıvan şəhərinin görməli yerlərini çox bəyəndiklərini dedilər. Proqram isə zəngindir. Acarıstanlı qonaqlar qaldıqları "Duzdağ" otelində gündə üç dəfə yeməklə təmin olunur, müxtəlif əyləncə xidmətlərindən istifadə edirlər. Gündüz saatlarında isə onları Naxçıvanın müxtəlif görməli yerləri ilə tanışlıq gözləyir.

**Əli CABBAROV**

***Sədərək Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı yığıncaq keçirilmişdir. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq geniş məruzə ilə çıxış etmişdir.***

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib



Qeyd olunmuşdur ki, rayon ərazisində payız-qış mövsümünə hazırlıqla əlaqədar müvafiq işlər görülmüş, bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Rayonda əhalinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün 2 ədəd müxtəlif gücdə yeni yarımstansiya quraşdırılmış, 1250 metr məsafədə 10 kilovoltluq, 2800 metr məsafədə isə 0,4 kilovoltluq yararsız hava xətləri dəyişdirilmiş, 70 köhnə elektrik dirəyi yenisi ilə əvəz edilmiş, transformatorların cari təmirinə diqqət artırılmışdır.

İcra başçısı bildirmişdir ki, rayon Qaz İstismarı Sahəsi payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün qaz təsərrüfatına mütəmadi olaraq texniki baxış keçirməli, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə olunmalıdır. Qaz xətlərindəki nasazlıqlar və sayğacdankənar istifadələr vaxtında müəyyən edilməli və aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar rayonda rabitə sahəsində də bir sıra işlər görüldüyünü deyən Həbib İbrahimovun sözlərinə görə, avtomobillərin hərəkətinin intensivliyini təmin etmək məqsədilə kəndarası və kənddaxili yollarda təmir-bərpa işləri aparılmışdır.

Vurğulanmışdır ki, rayondakı mövcud qazanxanalara texniki baxışın keçirilməsi, daxili istilik sistemlərinin qış mövsümünə hazırlığı qısa müddətdə başa çatdırılmalıdır. Bundan başqa, rayon Mərkəzi Xəstəxanasındakı təcili yardım maşınları qışa hazırlıqla əlaqədar texniki baxışdan keçirilməli, təmirə ehtiyacı olan maşınlar saz vəziyyətə gətirilməlidir.

Rayonda 100 ton tutumu olan soyuducu anbar fəaliyyət göstərir. Odur ki, əhalinin payız-qış mövsümündə ərzaq məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbara tədarükü və onların standartlara uyğun şəkildə saxlanılması təmin edilməlidir.

Sonra rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov, Elektrik Şəbəkəsinin direktoru Nazim Hüseynov, Qaz İstismarı Sahəsinin rəisi Yəhya Zeynalov və başqaları çıxış edərək payız-qış mövsümünə hazırlıqla əlaqədar qarşıda duran vəzifələrdən danışmışlar.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Naxçıvan şəhər sakini İlqar Nəsibovun Naxçıvanda "Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzi" İctimai Birliyinin ofisində döyülməsi barədə bəzi kütləvi informasiya vasitələrində yayılmış xəbərlərlə əlaqədar bildirir ki, baş vermiş hadisə ilə bağlı daxil olmuş məlumat əsasında Naxçıvan Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, heç də ictimai birliyin ofisinə hücum edilməmiş, hadisə yalnız məişət zəminində baş vermiş davadan ibarət olmuşdur.

Məlum olmuşdur ki, ictimai birliyin həmtəsisçisi olan İlqar Nəsibov uzun müddətdən bəri yaxın dostluq münasibətləri saxladığı Vətəndaş Həmrəyliyi Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının sədri olmuş, Naxçıvan şəhər sakini Fərid Əsgərovla birlikdə ictimai birliyin ofisində vaxtaşırı görüşərək orada içki məclisləri qurmuşlar.

21 avqust 2014-cü il tarixdə axşam saatlarında hər iki şəxs qeyd olunan ünvanda yenə də içki məclisi qurmuş, orada spirtli içki qəbul etmişlər. Həmin vaxt spirtli içkinin təsiri altında olan İlqar Nəsibov və Fərid Əsgərov arasında yaranmış mübahisə sonda əlbəyaxa davaya çevrilmişdir.

Fərid Əsgərov öz izahatında bildirmişdir ki, onlar arasındakı davaya səbəb onun ailə üzvləri haqqında İlqar Nəsibovun işlətdiyi nalayiq və təhqiramiz ifadələr olmuşdur.

Hər iki şəxs əlbəyaxa dava zamanı bir-birinə bədən xəsarətləri yetirmişlər.

Hazırda Naxçıvan şəhər sakini Fərid Əsgərov polis tərəfindən saxlanılmışdır. Faktla bağlı inzibati araşdırma tədbirləri davam etdirilir.

*23 avqust 2014-cü il*

*26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür*

# Dərin məzmunu və fəlsəfi zənginliyi ilə seçilən muğamlarımız milli sərvətimizdir

*Muğam Azərbaycan xalqının bədii yaradıcılığının və musiqi mədəniyyətinin zəngin bir hissəsi, əsrlərdən bəri şifahi şəkildə inkişaf edərək dövrümüzə qədər gəlmiş nadir sənət nümunəsidir. Azərbaycan musiqisinin və muğamının tarixi çox qədimdir. Qobustan və Gəmiqaya rəsmləri musiqimizin tarixi haqqında çox qiymətli məlumatlar verir. Muğamın yaranması haqqında dünyada müxtəlif fikirlər və fərziyyələr mövcuddur. Amma bu da faktdır ki, çağdaş dövrdə muğam ən çox Azərbaycanda inkişaf etmişdir. Ən əsası isə odur ki, muğamı indi bütün dünyaya tanıdan da məhz Azərbaycan xalqıdır.*

Azərbaycan muğamı xalqımızın tarixini, coğrafiyasını, mədəni həyatını, etnik köklərini özündə ehtiva edir. Muğam sənətimizdə xalqımızın müdrikliyini, gələcəyə inamını, məhəbbətini, düşüncə və təfəkkürünü, mübarizə və döyüş ruhunu görmək mümkündür. Başqa sözlə, muğam hər bir azərbaycanlının mənəviyyatının genetik kodu, ensiklopediyasıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***“Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları milli sərvətimizdir”.***

Azərbaycan muğamının ən mühüm cəhətlərindən biri də musiqi ilə qüdrətli sözün, yəni həqiqi poeziyanın vəhdətdə olmasıdır. Bu qüdrətli musiqini insana, dinləyicilərə çatdırmaq üçün həm də qüdrətli poeziya nümunəsinə ehtiyac duyulur. Hər poeziya nümunəsi muğamla oxuna bilməz. Xalqımız həm də öz muğamına layiq zəngin poeziya yaratmışdır. Digər bir tərəfdən, muğam sənəti Azərbaycan bəstəkarlarının, şairlərinin, rəssamlarının və heykəltəraşlarının daim ilham mənbəyi olmuşdur. Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cahangir Cahangirov, Süleyman Ələsgərov və başqaları muğam sənətinin qiymətli nümunələrini yaratmışlar. Ötən əsrin 40-cı illərinin sonunda Azərbaycan musiqisində simfonik muğamların yaranması muğamımızın ifadə imkanlarının genişliyini və rəngarəngliyini bütün dünyaya göstərmişdir. Fikrət Əmirovun “Şur”, “Kürd ovşarı”, “Gülüstani-Bayatı-şiraz”, Niyazinin “Rast”, Süleyman Ələsgərovun “Bayatı-şiraz” simfonik muğamları, Vaqif Mustafazadənin muğam əsasında ifa etdiyi musiqilər dünyanın müxtəlif ölkələrində səslənmiş və dinləyicilərin qəlbini fəth etmişdir.

Ötən əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoymuş, muğam ifaçıları və bu sənəti yaşadanlar qayğı ilə əhatə olunmuşlar. 1971-ci ildə YUNESKO-nun 50 albomdan ibarət olan “Dünya ənənəvi musiqisinin antologiyası” seriyasına “Azərbaycan musiqisi plastinkası” da daxil edilmiş, 1975-ci ildə Azərbaycan muğamları “Musiqi mənbələri” seriyasında buraxılmışdır.

Müstəqillik illərində də Azərbaycan musiqisinin və muğamının inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. 2002-ci ilin noyabr ayında YUNESKO tərəfindən muğam sənəti “Bəşəriyyətin qeyri-maddi mədəni irs reprezentativ siyahısı”na daxil edilmişdir. Ulu öndərin 2003-cü il 16 may tarixdə imzaladığı



“Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, muğam-dəsgahlar, zərb muğamlar, təsnif və rənglər də qorunan folklor nümunələri siyahısına salınmışdır. Həmçinin müxtəlif festivallarda, beynəlxalq müsabiqələrdə, dünyanın mötəbər mədəniyyət və musiqi tədbirlərində Azərbaycan muğamı əzəmətlə səslənmişdir. Bütün bunlar sonrakı illərdə də zəngin muğam sənətimizin inkişafı və tanıdılmasında həlledici rol oynamışdır.

Bu gün Azərbaycanda muğam sənətinə, musiqimizə dərin məhəbbət və ehtiramla yanaşı, həm də böyük diqqət və qayğı göstərilir. Ölkəmizdə elə bir musiqi tədbiri yoxdur ki, orada muğam sədası eşidilməsin. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Ölkə başçısı muğamı Azərbaycanın milli sərvəti kimi dəyərləndirərək demişdir: ***“Muğam Azərbaycanın milli sərvətidir. Azərbaycan xalqı əsrlər boyu bu gözəl sənəti öz həyatında uca tutmuşdur, öz qəlbində saxlamışdır. Nəsildən nəslə keçən muğam sənəti bu gün də Azərbaycanda yaşayır, qorunur, inkişaf edir”.***

Muğam sənətinin qorunub saxlanması və tanıdılması istiqamətində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Son illər ölkəmizdə bir sıra irimiqyaslı layihələr həyata keçirilmiş, muğam müsabiqələri təşkil olunmuş, “Qarabağ xanəndələri” albomu buraxılmış, “Muğam” jurnalı, “Muğam ensiklopediyası” nəşr edilmişdir. Muğama dair ilk tədris vəsaiti kimi 8 diskdən ibarət “Azərbaycan muğamı” multimedia toplusu hazırlanmışdır. Azərbaycanda 2009-cu ildən Beynəlxalq Muğam Festivalına və bu festival çərçivəsində Beynəlxalq “Muğam aləmi” simpoziumunun keçirilməsinə start verilmişdir.

Naxçıvan Muxtar Respublikasında da muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncamına əsasən keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da səslənir. 2012-ci ilin muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunması isə muğam musiqisi sahəsində yaddaqalan tədbirlərlə əlamətdar olmuşdur. Həmin il keçirilən “Milli dəyərlərimiz-milli sərvətimiz” folklor və muğam müsabiqəsi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. 2013-cü ildə isə Azərbaycan Respublikasında keçirilən “Muğam müsabiqəsi-2013” televiziya müsabiqəsinin bir mərhələsi də Naxçıvanda keçirilmiş, müsabiqənin münsiflər heyətinin üzvləri, tanınmış muğam ustaları Naxçıvan Dövlət Universitetində olmuş və ustad dərsləri keçmişlər.

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda qədim muğam sənətinin inkişafına göstərilən diqqət və qayğı onun daha da zənginləşməsinə öz töhfəsini verir. Çünki muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin musiqisidir. Elə buna görədir ki, sərhədləri aşan Azərbaycan muğamı bu gün bütün dünyada sevilərək dinlənilir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Müəllimlər İnstitutunda ixtisaslı pedaqoji kadrlar hazırlanır

*Ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 26 avqust tarixli sərəncamı ilə bu ali təhsil müəssisəsi müstəqil instituta çevrilərək Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlamışdır.*

Ötən 11 ildə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyəti genişləndirilmiş, ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Bu dövrdə institut ixtisaslı müəllim kadrları ilə təmin edilmiş, ali təhsil ocağının binası yenidən qurulmuş, lazımi tədris şəraiti yaradılmış, maddi-texniki bazası gücləndirilmiş, yeni ixtisaslar açılmışdır. 2003-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunda “ibtidai təhsil pedaqogikası və metodikası” və “məktəbəqədər tərbiyənin pedaqogikası və metodikası” ixtisaslarında təhsil verilirdisə, bu gün “ibtidai sinif müəllimliyi”, “riyaziyyat və informatika müəllimliyi”, “təsviri incəsənət müəllimliyi”, “məktəbəqədər təlim və tərbiyə”, “təhsildə sosial-psixoloji xidmət” ixtisasları üzrə bakalavr, “ibtidai sinif müəllimliyi”, “təhsildə sosial-psixoloji xidmət”, “ibtidai təhsilin pedaqogikası və metodikası” və “pedaqogika nəzəriyyəsi və tarixi” ixtisasları üzrə isə magistr kadrları hazırlanır.

21 tələbə ilə fəaliyyətə başlayan institut ötən müddətdə böyük yol keçmişdir. Hazırda 1000-ə yaxın bakalavr və 44 magistrantın təhsil aldığı bu təhsil ocağında 82 professor-müəllim heyəti çalışır. Müəllimlərdən 9-u elmlər, 40-ı isə fəlsəfə doktorudur. İnstitutda Dillər və ədəbiyyat, Pedaqogika və psixologiya, Humanitar və təsviri incəsənət, Riyaziyyat və tədris metodikası, Ali riyaziyyat və informatika, eləcə də Ümumi fənlər kafedraları fəaliyyət göstərir. Son 5 ildə institut əmək-



daşlarının 630 məqaləsi, 284 tezisi, 32 kitabı, o cümlədən 18 monoqrafiya, 4 dərslik, 28 dərs vəsaiti və həmçinin 81 metodik vəsait və fənn proqramları nəşr edilmişdir. İnstitut əməkdaşları tərəfindən mətbuatda müasir dövrün aktual problemlərinə dair məqalələr, yazılar dərc olunmuş, radio və televiziya verilişlərində mütəmadi çıxışlar edilmiş, diskussiyalar aparılmışdır.

Bu gün ali təhsil ocağında mütərəqqi təhsil metodlarının tətbiqinə diqqət artırılır. Dünyada qəbul edilmiş müasir tədris metodlarından istifadə tələbələrin bilik və dünyagörüşünün inkişaf etdirilməsinə əlverişli şərait yaratmışdır. Hazırda institutda təhsil Boloniya sistemi üzrə aparılır. Bu da Avropa təhsil sisteminə inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Müəllimlər İnstitutunda elmi tədbirlərin təşkili və elmi-pedaqoji kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır, əlamətdar günlərdə konfrans və simpoziumlar keçirilir, elmi müzakirələr aparılır. 2003-cü ildən başlayaraq hər ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda elmi-praktik konfranslar keçirilir. Konfranslarda ali təhsil müəssisələri əməkdaşları ilə bərabər, təhsil şöbələrinin əməkdaşları və orta məktəb müəllimləri də fəal iştirak edir, ulu öndərin zəngin siyasi fəaliyyəti ətraflı təhlil olunur, müxtəlif mövzularda mühazirələr dinlənilir. Bununla yanaşı, hər il institutda “Heydər Əliyev və Azərbaycan”, “Milli Qurtuluş Günü”, “Dövlət Müstəqilliyi Günü”, “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü”, “Xocalı faciəsi”, “Azərbaycanlıların soyqırımı və deportasiya tarixi”, “Beynəlxalq Ana Dili Günü”, “Azərbaycan gəncliyi inkişaf yollarında” mövzularında və görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfranslar təşkil olunur.

İnstitut ölkəmizdə, eləcə də muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqları və elm müəssisələri ilə mütəmadi əlaqələr saxlayır. 2007-ci ildən başlayaraq, Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, Riyaziyyat və Mexanika İnstitutu, Azərbaycan Astronomiya Cəmiyyəti və Marağa Astronomiya, eləcə də Astrofizika Elmi-Tədqiqat institutları ilə birlikdə müxtəlif mövzular üzrə beynəlxalq simpozium və konfranslar keçirmişdir. Naxçıvan Müəllimlər İnstitutu ilə xarici ölkə universitetləri arasında da elmi əməkdaşlıq vardır. İnstitutun Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Türkiyə Respublikasının Kocaeli, Ərzurum Atatürk, Qars Qafqaz, Kırşehir Ahı Evran və Doğu Akdeniz universitetləri, İngiltərənin London Riyaziyyatçılar Birliyi, Qazaxıstan Respublikasının Almatı Milli Universiteti ilə əlaqələri mövcuddur.

Naxçıvan Müəllimlər İnstitutunda zəngin kitabxana fəaliyyət göstərir. 40 min kitab fonduna malik olan kitabxana son illərdə nəşr olunan tədris-metodik, elmi monoqrafik ədəbiyyatlarla zənginləşdirilmiş və elektron kataloq yaradılmışdır. Hazırda fondda 2500 ədəd elektron kitab vardır. Həmçinin institutun “Xəbərlər” elmi-metodik jurnalı beynəlxalq kodla ildə 4 dəfə nəşr olunur. Bu günədək jurnalın 38 nömrəsi işıq üzü görmüşdür.

İnstitut əməkdaşları elmi araşdırmalar sahəsində də bir sıra uğurlar əldə etmiş, yeni elmi əsərlər yazılmışdır. Elmi naliyyətlərin istehsalatda tətbiqi ilə bağlı olaraq əməkdar elm xadimi, professor Oruc Həsənlinin “Sosial psixopedaqogikada istedadlı uşaqlar problemi” və “Məktəb psixoloqunun stolüstü kitabı”, professor Akif İmanlının “Uşaqların körpəlik dövründə tərbiyəvi iş və nitq inkişafı məsələləri”, dosent Qızıltac Şahbazovanın “Milli təhsilimizin himayədarı”, dosent Arif Ağalarovun “Ana dilindən praktik məşğələ”, pedaqogika üzrə fəlsəfə doktoru Solmaz Həsənlinin “Ailə tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları”, dosent Həsənəli Eyvazlı və Tamara Baxşəliyevanın “Milli kurikulum yeni təlim metodlarında ” adlı dərs vəsaitləri, metodik vəsaitlər və digər elmi ədəbiyyatlar hazırlanaraq Naxçıvan Muxtar Respublikasının bütün rayon və şəhər təhsil şöbələrinə paylanmışdır.

Elmi kadrların hazırlanması intellektual inkişafın əsas şərtidir. Ona görə də ötən müddətdə institutda elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Belə ki, son beş ildə institut əməkdaşlarından 5-i elmlər doktoru, 14-ü fəlsəfə doktoru alimlik dərəcəsini almışdır. İnstitutun müəllim kollektivinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, professor-müəllim heyətindən 1-i Əməkdar elm xadimi, 2-si “Azərbaycan Respublikasının əməkdar müəllimi”, 9-u “Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi”, 1-i “Naxçıvan Muxtar Respublikasının əməkdar həkimi”, 1-i isə “Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi” fəxri adlarına layiq görülmüş, 3 əməkdaş “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

*Naxçıvan Müəllimlər İnstitutunun kollektivi qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, ixtisaslı pedaqoji kadrların hazırlanması sahəsində fəaliyyətini gücləndirir və peşəkar müəllimlər ordusunun hazırlanmasına, gələcəyimiz olan gənclərin hərtərəfli yetişdirilməsinə və ölkəmizin intellektual potensialının yaradılmasına öz töhfəsini verməyə çalışır.*

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Mülki Müdafiə Alayının əsgərləri and içiblər



*Avqustun 24-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında əsgərlərin andiçmə mərasimi keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra əsgərlər əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov çıxış edərək hərbi andın əhəmiyyətindən danışıb, əsgərləri əlamətdar gün münasibəti ilə təbrik edib. Mərasimdə bölük komandirləri baş leytenant Dönməz Məmmədov, baş leytenant Aslan Əliyev, baş leytenant Ramil Quliyev, kiçik çavuş Vəli Rzayev, əsgər Əli Əhmədli, həmçinin Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, valideynlərdən Şahin Əkbərov çıxış edərək Vətənə sədaqət andı içən əsgərləri təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıblar.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, polkovnik Hikmət Kərimov mərasimdə çıxış edərək Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolundan, eləcə də Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinin insanların təhlükəsizliyi naminə həyata keçirdiyi tədbirlərdən danışıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Qədirulla Bağırovun anadan olmasının 65 illik yubileyinə həsr olunmuş sərgi

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü olmuş Qədirulla Bağırovun anadan olmasının 65 illik yubileyinə həsr olunmuş "Rənglər dünyası" adlı xatirə sərgisi təşkil edilib.*





Sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək rəssamın özünəməxsus yaradıcılıq yolundan danışıb. Bildirilib ki, Qədirulla Bağırov 1968-ci ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. Naxçıvan Rəssamlar Birliyinin yaradıcılarından biri olan Q.Bağırovun indiyədək Çexiya, Rusiya, Özbəkistan və digər ölkələrdə əsərləri sərgilənib. O, 1982-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv seçilib.

Tədbirdə rəssamın yaradıcılığından bəhs edən Xalq rəssamı Hüseynqulu Əliyev onun özünəməxsus yaradıcılıq xüsusiyyətlərindən danışıb.

Sonra sərgiyə baxış olub. Sərgidə rəssamın müxtəlif janrlarda çəkilmiş 70-dən çox əsəri nümayiş olunur. Burada yağlı boya ilə çəkilmiş peyzaj nümunələri, natürmortlar daha çox diqqəti cəlb edir. Rəsmlər arasında muxtar respublikanın təbiət və tarixi abidələri, xüsusilə "Bizim dağlar", "Aza körpüsü", "Batabat mənzərəsi" kimi rəsm əsərləri rəssamın fırçasında daha orijinal təsir bağışlayır.

Qeyd edək ki, sərgi qarşıdakı bir həftə müddətində Bərhuz Kəngərli adına Sərgi Salonunda davam edəcək.

**✍ Sona MİRZƏYEVA**

*Gimnastikanın bütün növlərinin, o cümlədən bədii gimnastikanın kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir.*

## Muxtar respublikada bədii gimnastika üzrə məşqlərə başlanılacaq

Bu gün Azərbaycanda bədii gimnastikanın zəngin ənənələrini davam etdirməyə qadir olan perspektivli gimnastların yeni nəsli formalaşmaqdadır. Azərbaycanda bədii gimnastikanın yaranma və inkişaf tarixi keçən əsrin 40-cı illərinə təsadüf edir. İlk dəfə qızlardan ibarət yaranan qrup ölkəmizdə bu idman növünün formalaşması istiqamətində uzun müddət fəaliyyət göstərib.

Artıq Azərbaycanın bütün regionlarında sevimli idman növünə çevrilən bədii gimnastika ilə Naxçıvan Muxtar Respublikasının idmançıları da məşğul ola biləcəklər. Belə ki, Azərbaycan Respublikasının idman ustası, məşqçi-müəllim Humay Qafarovanın rəhbərliyi altında gənc gimnastlar İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşqlərə başlayacaqlar. Həftənin 3 günü (I-III-V) mütəmadi olaraq məşqlər keçəcək H.Qafarova yalnız 3-11 yaşlı qızlara gimnastikanın sirlərini öyrədəcək.

## Açıq birinciliyə yekun vurulub

Culfa Rayon Gənclər və İdman İdarəsi ilə Uşaq-Gənclər Şahmat Məktəbinin təşkil etdiyi yeniyetmə və gənclər arasında "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında şahmatın tempa növü üzrə açıq birinciliyə yekun vurulub. Şahmat Məktəbində keçirilən birincilikdə 22 zəka sahibi qüvvəsini sınayıb. Gərgin mübarizə şəraitində keçən birinciliyin qalibi adını 6,5 xal toplayan Əli Qulamzadə qazanıb. Ondan yarım xal az toplayan Araz Bəhramzadə ikinci, Aybəniz Hüseynova (5,5 xal) isə üçüncü olublar.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Babək rayon ümumtəhsil məktəblərinin 2014-2015-ci tədris ili üçün müəllim kadrlarına olan ehtiyac haqqında məlumat

| | Məktəbin adı | Rayon mərkəzi ilə məktəb arasında məsafə (km) | Ehtiyac olan ixtisaslar | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika, Astronomiya | | Kimya | | Biologiya | | Əmək hazırlığı | | Rəsmxət və rəsm | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | Musiqi və nəğmə | | İbtidai sinif | | Cəmi: | |
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1 | Nehrəm kənd 1 nömrəli tam orta məktəb | 4,5 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 2 | Nehrəm kənd 2 nömrəli tam orta məktəb | 8 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 3 | Cəhri kənd 1 nömrəli tam orta məktəb | 26 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 6 | 1 | 6 |
| 4 | Sirab kənd tam orta məktəbi | 22 | 1 | 8 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 6 | 2 | 14 |
| 5 | Kərimbəyli kənd tam orta məktəbi | 10 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 6 | Qaraqala kənd tam orta məktəbi | 21 | 1 | 8 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 8 |
| 7 | Qahab kənd tam orta məktəbi | 14 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 8 | Yarımca kənd tam orta məktəbi | 8,5 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 4 | | | | | 1 | 4 |
| 9 | Vayxır kənd tam orta məktəbi | 23 | | | 1 | 8 | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | 3 | 32 |
| 10 | Yuxarı Buzqov kənd tam orta məktəbi | 60 | | | 1 | 12 | | | | | | | | | | | 1 | 8 | 1 | 12 | | | | | | | | | | | | | 3 | 32 |
| 11 | Aşağı Buzqov kənd tam orta məktəbi | 55 | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | 3 | 36 |
| 12 | Gərməçataq kənd tam orta məktəbi | 53 | | | | | | | | | 1 | 12 | 1 | 6 | 1 | 6 | 1 | 8 | 1 | 6 | | | | | 1 | 6 | | | | | 1 | 14 | 7 | 58 |
| 13 | Payız kənd tam orta məktəbi | 40 | | | 1 | 12 | | | 1 | 6 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | 3 | 30 |
| 14 | Xalxal kənd tam orta məktəbi | 22 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 |
| 15 | Nəcəfalıdizə kənd tam orta məktəbi | 20 | | | 1 | 18 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 |
| 16 | Araz ümumi orta məktəbi | 10 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 17 | Qahab ümumi orta məktəbi | 15 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| | **Cəmi:** | | **3** | **28** | **7** | **86** | **2** | **24** | **2** | **18** | **3** | **36** | **2** | **18** | **2** | **18** | **2** | **16** | **2** | **18** | | | | | **2** | **18** | **2** | **16** | | | **3** | **26** | **32** | **322** |

## Sədərək rayon ümumtəhsil məktəbləri üzrə 2014-2015-ci tədris ili üçün I-XI siniflərdə pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| | Məktəbin adı | Rayon mərkəzi ilə məktəb arasında məsafə (km) | Ehtiyac olan ixtisaslar | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika, Astronomiya | | Kimya | | Biologiya | | Əmək hazırlığı | | Rəsmxət | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | Rus dili | | İbtidai sinif | | Cəmi: | |
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1 | Sədərək kənd 1 №-li tam orta məktəb | 8 | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 24 | | | 1 | 18 | | | | | | | | | | | 3 | 60 | 11 | 246 |
| 2 | Sədərək kənd 2 №-li tam orta məktəb | 2 | 1 | 24 | 1 | 24 | 1 | 24 | | | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 24 | 1 | 18 | | | | | | | | | | | 3 | 60 | 11 | 246 |
| 3 | Heydərabad qəsəbə tam orta məktəbi | | 1 | 24 | | | 1 | 24 | | | 1 | 24 | 1 | 24 | 1 | 18 | | | | | | | | | | | | | | | 1 | 24 | 6 | 138 |
| 4 | Qaraağac kənd tam orta məktəbi | 16 | | | 1 | 24 | | | | | 1 | 24 | | | 1 | 18 | | | | | | | | | | | | | | | 1 | 24 | 4 | 90 |
| | **Cəmi:** | | **3** | **72** | **3** | **72** | **3** | **72** | **1** | **24** | **4** | **96** | **3** | **72** | **4** | **84** | **1** | **24** | **2** | **36** | | | | | | | | | | | **8** | **168** | **32** | **720** |


### İtmişdir

Şərur rayonunun Xanlıqlar kənd sakini Əliyev Yaşar Yaqub oğlunun adına olan 7N-387A inventar nömrəli "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Orucov Bəxtiyar Abbas oğlunun adına olan 2300092 nömrəli baş gizirin hərbi şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Orucov Bəxtiyar Abbas oğlunun adına verilmiş müharibə veteranının vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın Nevrologiya şöbəsinin kollektivi şöbə müdiri Yazgül Rzayevaya, dayısı **SƏTTARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Şərq qapısı" qəzetinini kollektivi iş yoldaşları Türkanə İbrahimovaya, əmisi **CƏMALƏDDİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının kollektivi iş yoldaşları Fəridə Ələsgərovaya, qardaşı **ELBRUSUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 725**